# Üç gün cənnətdə



Nuşabə Əsəd Məmmədli

(Hekayə)

*Turqay məktəb direktorunun qapısını açdı. Direktor başını qabağıdakı kağızlardan ayırmadan;*

*—Hə, yenə nə sözün var?-soruşdu.*

*—Gəldim məlumat verəm ki, mən müharibəyə gedirəm.*

*Turqay əlindəki çağırış vərəgini və direktorun adına yazdığı ərizəni onun qabağına qoydu.*

*—Könüllü gedisən?*

*—Bəli. Bu hər bir Azərbaycanlı kişisinin borcudu*

*—Nə deyirəm, get sağ-salamat qayıt uşaqlarının yanına.*

*Lakin direktorun gözlərində sevinc qığılcımları göründü. Müdir kinli adam idi. Və Turqayla bağlı olayları unuda bilmirdi.*

*—Sağ olun.*

*Turqay onun əlindən çağırış vərəgini aldı və qapıdan çıxdı.*

Keçən il pandemiyadan qabaq keçirilmiş pedaqoji şuranı yadına saldı. Cismi bir anlıq uçundu. Düşündü ki, həmin günü yaddaşından silmək istəyərdi. Ancaq silə bilmədi.

Turqay məktəbin rus bölməsində tarix müəllimi idi. Mövzu orta əsr tarixini əhatə edirdi. O dövr Rusiyaya yürüşlər edən polovetslər, peçeneqlər, xəzərlər haqqında xoşagəlməz sözlər yazılmışdı dərslikdə. Şagirdlər mahiyyətinə varmayaraq dərsi əzbərləyib soyləyirdilər. Hələ üstəlik divar qəzetində peçeneqlərin, polovetslərin, xəzərlərin karikaturalarını çəkmişdilər. Onda Turqay bu qəzeti cırmış, dərs zamanı uşaqlara anlatmışdır ki, adları çəkilən bu "mənfi" xalqlar bizim əcdadlarımızdı. Dərslik büsbütün yanlışlığa yol verir. Bu dərs vəsaitində adları "düşmən" kimi təqdim olunan xalqlar qədim türklərdi. Yeni divar qəzeti hazırlayın... Hələ paytaxtımız Bakının tarixi də, adi da təhrif olunur. Bakının tarixi bizim eradan qabaqdır, şəhərin qədim adı da Nefatadı.

Sonra sinif rəhbəri, dərs hissə müdiri və direktor işə qarışdı. Təcili pedaqoji şura çağırıldı. İclas müəllimlər otağında deyil, zalda keçirildi.

Bu iclasda məktəbin 200 yaxın müəllimi iştirak edirdi. Gündəlikdə bir məsələ dururdu; Turqay müəllimin bu məktəbdə qalıb dərs deməsi ya da işdən çıxarılması. Məsələ şəhər təhsil idarəsi ilə razılaşdırılmışdı.

*—Turqay müəllim bizim təhsil sistemimizə, hörmətli nazirimizə qarşı çıxış edir. Bu yolverilməzdi!. Uşaqlara öyrədir ki, paytaxtımızın qədim adı Nefata olub. Soruşan gərək ay Turqay müəllim sən bizim eradan qabaq yaşamışdın? Sən Bakının Nefata olduğu dövrü görmüşdün?—Direktor alnının tərini sildi.*

*Bakını orta əsrlərə aid edən "alimlərimiz" orta əerlərdə yaşamışdılar?—Turqay replika atdı. O fikirləşdi ki, özlərini tarixçi adlandıran kəslər heç olmasa qədim mənbələri oxuya bilməsələr də heç olmasa 19-cu əsrdə yaşamış Karamzini,20.-ci əsrdə yaşamış və yaşayan Lev Qumilyovu, Sara Aşurbəylini, Ziya Bünyadovu, Firdovsiyyə Əhmədovanı, Nəsiman Yaqublunu oxuyardılar kaş.*

*—Nə deyirsiniz, biz bu vəziyyətlə barışmalıyıq? Direktorun səsi Turqayı fikrindən ayırdı.*

Müəllimlər susurdu. Hər kəs gələcək dərs yükünü, dolanışığını düşünürdü.

—Mən hesab edirəm ki, Turqay müəllim şəhərimizin çox savadlı müəllimlərindən biridi. O nə deyir, doğru deyir. Əslində təhsildə və dərsliklərdə islahat aparılmalıdı—bu səs Gülarə Paşazadədənin səsi idi. Turqayın sanki qanı dondu damarlarında. Gularə müəllimə məktəbin cavan ədəbiyyat müəllimi idi. Həftədə cəmi iki dəfə dərsi olurdu. Həmin günləri Turqay bir möcüzə kimi gözləyirdi. Məhz Gülarəyə görə o hətta dissertasiya müdafiə edəndən sonra da dəvət olunduğu universitetə işə getmədi. Hərçənd evdə arvadı israr edirdi ki, nadan direktoru olan məktəbdən çıxsın, alimlər içində elmi fəaliyyətini davam etdirsin. Turqayın car skifləri haqqında yazdığı işi elmi dairələrdə geniş müzakirə olunurdu....

Müəllimlərin səsi, qışqırığı zalı başına götürmüşdü. Arabir şagirdlər qapını açıb burada baş verələrdən hali olmaq istəyildilər.

Tək-tək müəllimlər Turqayı müdafiə etməyə cəhd etdi, Gularənin sözlərinə haqq qazandırdılar. Turqay heç kəsi eşitmirdi. O sadəcə buradan çıxıb



*Gecə gördüyü yuxunu yadına saldı. Yuxuda Turqay üstünə qar yağmış al qırmızı güllər gördü. O, bu gülləri qarın üstündə ayaqyalın dayanmış Gülarəyə verir. Qara bürünmüş gülləri Gülarə açıq sinəsinə sıxır. O, gülləri qoxulayır. Turqay Gülarənin saçlarının ətrini ciyərlərinə çəkir. Ayaqlarının altındakı qar pəmbə bulutlara dönür. "Biz nə gec rastlaşdıq"... Güllər onların ayaqlarına düşdü*

getmək istədi. Turqay heç kəsə baxmadan qapını açıb zaldan çıxdı. Arxasınca deyilən—belə saymamazlıq olar? Sözlərini eşitdi. Turqay öz köhnə "mersedes"ini məktəbdən xeyli uzaq olan kababxanaya sürdü. Burada o, Gülarənin müstəntiq ərini məşhur aktrisa ilə kupedən çıxan gördü. Deyirdilər bu aktrisa müstəntigin cavanlıq sevgisi olub, indi də ayrılmazdılar. Ya Gəncədə ya Bakıda görüşürdülər. Turqay eşitmişdi ki, müstəndiq iki kasıb uşaqları öz hesabına ali məktəbdə oxudur, onların təhsil haqqını ödəyir ki, yarı yolda qalmasınlar. Müstəntiq Turqaya salam verib aktrisanı qabağa ötürdü.

"Görəsən ərinin bu eşq macərasını Gülarə bilir?" –Ani keçirdi beynindən Turqay. Müstəntiq maşının qapısını açıb, aktrisanı yanında əyləşdirdi.

Sonra Turqay uzaqlaşan maşının səsini eşitdi.

Turqay bir az yemək, bir də araq sifariş elədi, evə getmək istəmirdi. Arvadı Gülsüm hələ işdə-xəstəxanada idi. Bu gün o növbətçi həkim idi və evə gec gələcəkdi. Uşaqları dərsdən sonra nənələrigildə olacaqdılar. Həmişə Gülsüm növbətçi olanda, oğlu da, qızı da məktəbin yaxınlığında yaşayan nənələrigilə gedirdilər. Turqayın qaynanası da, qaynatası da Gəncənin tanınmış həkimlərindən idilər.

Kababxanadan sonra Xan bağına yollandı.

*Turqay evə dönəndə artıq şər qarışmışdı. Ev sükuta qərq olmuşdu. Turqay yorğun adamlar kimi divana çökdü. Özü də hiss eləmədən yuxuya getdi. Uyğusunda o çoxdan dünyalarını dəyişmiş ata-anasını gördü;*

*—Can bala, yenəmi sənə məhkəmə qurdular?*

*—Eybi yoxdu keçib, gedər. Əsl kişinin başı qalda gərək,—bunu atası dedi.*

*Açılan qapının səsi Turqayı yuxudan oyatdı. Gülsum uşaqlarla evə dönmüşdü.*

*—Bə sən mənə adidas krossovkası almadın?—oğlu soruşdu.*

*—Bu gün vaxtım olmadı. Yaxın vaxtarda mütləq alacam.*

*Qızı onu qucaqladı, öpdü—məndə krossovka istəyirəm!*

*—ikinizə də alacam.*

—Kefin niyə yoxdu?—soruşdu Gülsüm.

Gülsüm uşaqlardan fərqli olaraq heç vaxt heç nə istəmirdi. Elə bir qıymırdı Turqaya.

Gülsüm otağında paltarını dəyişdi, mətbəxə keçib çay qoydu, yeməyi isitdi. Növbətçi olanda həmişə naharı axşamdan hazır edirdi.

O Turqayın içkili olduğunu dərhal duydu. Ancaq ondan heç nə soruşmadı. Turqay gözünə çox bikef dəydi. Düşündü ki həmişə ağıllı, dünyanı dərk edən insanlar üçün yaşamaq çətin olur.

*Hamıya "bəli", "baş üstə" deyən adamlara yaşamaq asandır. Nə yaxşı ki, Turqay bu cür yaşamaqdan imtina etməyi bacardı.*

*—Turqay, uşaqlar, əllərinizi yuyun nahar hazırdır.*

—Mən ac deyiləm. Siz nahar edin, mən maşına benzin doldurub qayıdıram. Bu məqam Turqay Gülsümün sual dolu baxışlarıyla qarşılaşdı. Ancaq dərhal üzünü çevirib, qapıdan çıxdı. Maşını elə balaca həyətlərinin darvazasının yanında saxlamışdı. Benzin doldurmaq fikrindən vaz keçdi. Sabah işə gedəndə dolduraram, düşündü. Turqay yol alıb üzü aşağı küçəylə getməyə başladı. O qədər getdi ki, axırda məktəbin yaxınlığında yaşayan Gülarəgilin evinin yanına gəldi. İstədi təsadüfən onu görsün, ya da heç olmasa uzaqdan onun səsini eşitsin. Ancaq Turqay nə onu gördü nə də səsini eşitdi.

Gecə gördüyü yuxunu yadına saldı. Yuxuda Turqay üstünə qar yağmış al qırmızı güllər gördü. O, bu gülləri qarın üstündə ayaqyalın dayanmış Gülarəyə verir. Qara bürünmüş gülləri Gülarə açıq sinəsinə sıxır. O, gülləri qoxulayır. Turqay Gülarənin saçlarının ətrini ciyərlərinə çəkir. Ayaqlarının altındakı qar pəmbə bulutlara dönür. "Biz nə gec rastlaşdıq"... Güllər onların ayaqlarına düşdü.

Turqay Gülarəni özünə sıxdı. "Biz nə gec rast gəldik biri-birimizə" Onu bu ilahi yuxudan uşaqların səsi oyatdı. Onlar məktəbə hazırlaşıdılar.

"Əgər gerçəkdə heç olmasa bir gün belə olsaydı, mən ömrümün qalan hissəsindən imtina edərdim."

Telefon zəng etdi. Dostu Valeh müəllim idi.

—Bilirsən, sənə heç töymət də verilmədi. Şifahi xəbərdarlıqla kifayətlənməli oldular. Direktor da, təhsil idarəsinin nümayəndəsi də suyu süzülmüş çıxdılar iclasdan.

—Sağ ol, qardaş.

Turqay yadına saldı ki, bir dəfə də şifahi xəbərddarlığı böyük Məmməd Əmin Rəsulzadənin şəklini tarix kabinəsində asdığı üçün almışdı. Onda da bu direktor divardan asılan şəkli tələb etmişdir ki, Turqay götürsün.

—Şəkil yerində qalacaq. Başa düşürsən sən və sənin kimilər müvəqqətidilər, ancaq Rəsulzadə əbədidir.

Dərs issə müdiri Turqayı sakit eləməyə çalışdı.

—Sabah seçkiynən bağlı məktəbimizə icra hakimiyətindəın məsul adamlar gələcək. Hörmətli direktorumuz ona görə narahatdır. İndi götür, sabah yenidən asarsan.

Valeh müəllim də, başqa müəllimlərdə artıq sinif otağına gəlmişdilər. Direktorun rəngi avazımışdı. Turqay da özündə deyildi. Valeh müəllim onun qoluna girib dəhlizə çıxartdı. Turqay siqaret yandırdı. Bir azdan "hörmətli" qonaqlar məktəbə təşrif buyurdular. Onlar gedəndən sonra Turqay sinif otağına keçdi. Dərs hissə müdiri iki şagirdlə birgə Rəsulzadənin şəklini yenidən divardan asırdılar.

***

*Turqay evə döndü. Gülsüm heç nə soruşmadan ona təzə qəhfə dəmlədi. Yeni bişirdiyi qozlu piroqu dilimləyib masanın üstünə qoydu. O biri otaqda uşaqlar dərslərini hazırlayırdı. Turqay pəncərə şüşəsinə yapışan sarı tut yarpağına baxdı. Tut ağacı düz onların pəncərəsinin qabağında bitirdi. Yayda onun ətrafı çox səsli-küylü olurdu. İndi sakitlikdi. Tənha sarı yarpaq aynaya yapışıb qalıb. Yəgin külək onu da aparar. Zaman küləyi bizi də aparacaq. Qışda pandemiya başladı. Uşaqlar onlayn dərslər keçirdilər. Hərdən müəllimlər yeni təlimat almaq üçün məktəbə çağrılırdı. Onda hər kəs maska taxıb əllərini spirtləyib işə gəlirdi. Sonra yenə onlayn dərslərinə başlanılırdı. Turqay məktəbdə Gülarəni gördü. "Allahım mənə güc ver onu unudum" Hər dəfə Turqay Gülarəni görəndə mənən çarmıxa çəkilirdi elə bil. 'Məni bu əzabdan xilas elə, Allahım" Hərdən yuxusu ərşə çəkiləndə, bütün cisminin ağrımasını istəyirdi ki, ruhu, qəlbi ağrımasın. Həm də istəmirdi ki, Gülsüm onun içindəki vəlvələni duysun.Onu əsla incidmək istəməzdi Turqay. Son vaxtlar Gülsümün pandemiyaya görə işi artmışdı. O, evə çox yorğun gəlirdi. Xəstəxanada ölüm hadisəsi olanda, evdə heç yemək də yemirdi. Çox vaxt onlar üçün naharı artıq təqaüddə olan qaynanası hazırlayırdı.*

Hərdən ağır xəstə olanda Gülsümü gecə, ya səhərə yaxın çağırırdılar xəstəxanaya. Həmişə Turqay aparırdı onu ora.

—Mən sənə yaman zəhmətverirəm-deyirdi Gülsüm.

—Heç bir zəhməti yoxdu. Borcumdu.

Bir dəfə də əriylə birgə avtomobil gəzasına düşmüş cavan qadın gətirmişdilər xəstəxanaya. O, çox qan itirmişdi. Qan qrupu mənfi iki idi, eynən Gülsümünki kimi. O təcili tibb bacısını çağırdı—mənimlə eyni qrupdandı. Qan bankında bu qrup qan tükənmişdi. Gülsüm çarpayıya uzandı. Tibb bacısı onun qanını xəstə qadına köçürtdü. Qadın zorla dili topuq çala-çala ərinin vəziyyətini soruşdu—O reanimasiyadadır. Yaxşı olar, inşaallah. Hadisə ilə bağlı polis işçiləri artıq baş həkimin yanındaydılar. Onların içində müstəntiq Paşazadə də varıydi. Turqay onu görməmək üçün üzünü yana çevirdi. Cərrah xəstənin yanına gələndə, Gülsüm palatadan çıxdı. Maşına əyləşəndə onun başı gicəlləndi.

***

Turqay evə gələndə, Gülsüm artıq yemək hazırlayırdı. Onun rəngi avazımışdı. Gecə demək olar ki, heç yatmamışdı. Yatağına sanki qor dolmuşdu. Hiss edirdi ki, Turqay da yatmır. Güsüm bilirdi ki, Turqay müharibə başlayandan özündə deyil. Artıq on gün idi ki, evlərində gərginlik yaşanırdı. Gülsümün əlacı olsaydı, Turqaya gələn ağrı—acılalırı öz ürəyinə götürərdi. Lakin hər kəsin ancaq ona məxsus olan dərdi—səri var. Dərd ürəkdən ürəyə köçmür.

*İclasdan sonra Gülarə oğlu Nihadı məktəbdən götürüb atasıgilə getdi. Qabaqçadan ərinə zəng etdi, ancaq o telefonu açmadı. Gülarə ona sms göndərdi—atam gilə getdik. Ata evində özünü rahat hiss edirdi, sanki yenidən gəncləşirdi. Qardaşı Murad da ayrı evi olmasına baxmayaraq, atasıgilnən olurdu. Muradın 2 oğlu var idi. Biz həmişə valideynlərimizin yanında yaşayacayıq,—Deyirdi Murad. Bu ev həmişə qonaqlı—qaralı idi.*

*Atası işdə idi. Anası xəngəl bişirirdi. Qardaşı Murad Gəncə şərab zavodunda təchizat şöbəsinin müdiri idi. Həmişə Gülarəyə qarşı diqqətli, həssas idi.*

*-Son vaxtlar gözümə birtəhər dəyirsən. Problem-zad yoxdur ki? Xətrinə dəyən yoxdur ki?. Qardaşı sual yağışına tutdu Gülarəni.*

*-Yox heç kim xətrimə dəyməyib,-Gülarə onu qucaqladı.*

*-Sənin xətrinə dəyəni mən məhf edərəm.*

(ardı gələn sayımızda)